# Mühazirə-19

## Azərbaycan SSR 1946-1991-ci illərdə.

***Plan:***

***1**. Müharibədən sonra Azərbaycanın sosial –iqtisadi vəziyyəti ( 1946-1950 ortaları).*
***2**. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən deportasiya edilməsi.*
***3**. 1960-cı illərin sonu 80-ci illərin ortalarında Azərbaycan SSR-də idarəçiliyin möhkəmləndirilməsi və iqtisadi yüksəliş. Milli dirçəliş siyasəti.*
***4**. SSRİ-nin dağılmasının ictimai-siyasi zəmini. Yenidənqurma siyasəti və Azərbaycanda onun ağır nəticələri.*
***5.** Qondarma Dağlıq Qarabağ problem. Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhd-ləri.*
***6.** Azərbaycanda xalq hərəkatının başlanması.*
*7. Azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından ( Ermənistan SSR ərazisindən ) tamamilə qovulması.*
***8.** Azərbaycanda Milli azadlıq hərəkatını boğmaq cəhdləri. Bakıda 1991-ci il qanlı yanvar faciəsi. Onun hüquqi-siyasi qiyməti.*

***ƏDƏBİYYƏT:***

*1. Əliyev H.Ə. Sovet Azərbaycanı. Bakı, 1981.*
*2. Azərbaycan tarixi.7 cilddə. VI,VII cildlər.Bakı,2008.*
*3. XX əsr Azərbaycan tarixi. II hissə. Bakı, 2009.*
*4. Qafarov T. Azərbaycan tarixi ( 1920-1991). Bakı, 1999.*
*5. Musayev T. XXəsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr. Bakı, 1999.*
*6. Nəcəfov B. Deportasiya. I, II, III hissə.Bakı,2006.*
*7. Erməni xəyanəti. Terror, soyqırım və deporyasiya siyasəti. Bakı.2009.*

II Dünya müharibəsi, onun tərkib hissəsi olan Böyük Vətən müharibəsindən sonra da **ölkədə bütün siyasi hakimiyyət Stalinin əlində cəmləşmişdi.** 1946-cı ilin fevralında SSRİ Ali Sovetinə yeni seçkilər keçirildi. Həmin ilin martında SSRİ Ali Soveti Xalq Komissarları Sovetini Nazirlər Sovetinə çevirmək haqqında qanun qəbul etdi. İ.V.Stalin SSRİ Nazirlər Sovetinin sədri təsdiq edildi. Real hakimiyyət isə yenə də ÜİK(b) P MK Siyasi Bürosunun əlində idi. Stalin ölkəni hər vasitə ilə təkbaşına idarə etməyə çalışırdı. Respublikalarda isə hakimiyyət öz idarəçilik fəaliyyətlərini Stalinin istəklərinə uyğunlaşdıran Kommunist Partiyası Mərkəzi Komitələri Birinci katiblərinin əlində cəmləşmişdi.

Yerlərdə rəhbər işlərə kadrlar şəxsi sədaqətə görə gətirilirdi. Kadrların işgüzarlığı, şəxsi keyfiyyətləri, tələbkarlığı və digər fərqləndirici vəziyyətləri nəzərə alınmırdı. Stalinin şəxsiyyətinə daha da güclənən pərəstiş, onun əlaltılarının partiyaya, dövlətə zidd hərəkətləri və özünü Stalinə ən yaxın adam, rəhbər kimi göstərən avantürist Beriyanın cinayətkar fəaliyyəti, həmçinin müharibədən sonrakı dövrdə həyata keçirilmiş bir sıra tədbirlər – 1949-cu ilin aprelində şəhər və milis orqanlarında siyasi idarələrin yaradılması, həmin ilin avqustunda paytaxtlarda, o cümlədən Bakıda, milisə xüsusi hüquqların verilməsi, oktyabrın 13-də milisin SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin tabeliyinə keçirilməsi və digər tədirlər SSRİ-də totalitar rejimin gücləndirilməsinin əsas təzahürlərindən idi.

Totalitar rejimin güclənməsinin ən ağır nəticələri özünü elm, ədəbiyyat, incəsənət və mədəniyyətin digər sahələrində daha qabarıq şəkildə göstərirdi. Ölkənin ictimai-siyasi və social həyatında hər şey kommunist ideologiyasının inhisarına alınmışdı. «Hakim millət» və «hakim ideologiya» başlıca şüara çevrilmişdi. Elmin müxtəlif sahələrində, o cümlədən fəlsəfə, biologiya, fiziologiya, siyasi, iqtisadi, diçilik sahələrində açılmış elmi diskussiyalar formal xarakter daşıyırdı. Elmin bütün sahələrində marksist ideologiya hökm sürürdü. Şəxsiyyətə pərəstişin ağır nəticələri humanitar, biologiya, xüsusilə də tarix elmində özünü daha bariz göstərirdi. Elm,

ədəbiyyat və incəsənət üzərində «hakim» ideologiya getdikcə güclənirdi. 1946-1950-ci illərdə fəlsəfə, tarix, siyasi iqtisad, biologiya, fiziologiya, dilçilik və digər elm sahələri üzrə diskussiyalar açılsa da, bunlar formal xarakter daşıyırdı. Totalitar rejimin inkişafına və möhkəmləndirilməsinə xidmət edən, «hakim ideologiya»ya tabe olan ictimai, humanitar, xüsusilə də tarix elmində şəxsiyyətə pərəstişin nəticələri özünü daha çox göstərirdi.

II Dünya müharibəsindən sonrakı dövr Azərbaycanın ictimai-siyasi həyatında çox ziddiyyətli və mürəkkəb dövr olaraq qalırdı. 1946-1950-ci illərin əvvəllərində respublikada gedən siyasi proseslər, bütün hallarda Mircəfər Bağırovun nəzarəti altında olmuş və «qurama» işlər üstündə 30-cü illərin repressiyaları bu dövrdə də davam etdirilmiş, yüzlərlə günahsız insan, ilk növbədə, görkəmli ictimai-siyasi və elm, təhsil xadimləri həbs edilib cəzalandırılmışdı. Azərbaycanda Mircəfər Bağırovun qüsurlu rəhbərlik metodu davam etməkdə idi. M.Bağırovun əlaltıları –xalqımızın düşmənləri – Yemelyanov, Borşov, Markaryan, Qriqoryan, Sumbatov-Topuridze, Atakişiyev xalqımızın ən görkəmli ziyalılarına, şəxsiyyətlərinə çox qəddar münasibət bəsləyirdilər.

Həmin dövrdə xalqımızın ən qabaqcıl nümayəndələrindən olan neftçi alimlərimiz Ə.Əlizadə, B.Sultanov, Ə.M.Cəmil, filosoflarımız Heydər Hüseynov, Əli Əlizadə, yazıçı Ə.Ələkbərzadə, şair S.Vurğun, bəstəkar Ü.Hacıbəyov və digərləri təqiblərə məruz qaldılar. Həmçinin ədəbi jurnallar, teatr repertuarları və kino sənəti haqqında ÜİK(b) P MK-nın 1946-1948-ci illərdə qəbul etdiyi qərarlarda bədii formanın sosialist ideyalarına tabe edilməsinə şərait yaradılmışdı. Xalqın nadir incilərindən olan Azərbaycan dastanları feodal münasibətləri təbliğ etməkdə ittiham olunurdu. «Kitabi- Dədə Qorqud» dastanı «irticaçı feodal-xan eposu» adlandırılmış və onun tədqiqatçıları təqiblərə məruz qalmışdı.

M.Ə.Rəsulzadə 1949-cu ildə Ankarada «Azərbaycan kültür dərnəyi»ni yaratmışdı. Əsas məqsədi maarifçiliyi təbliğ etmək idi. Onun rəhbərliyi ilə 1952-ci ildən Ankarada «Azərbaycan» jurnalı da nəşr olunurdu. Bolşevizmə qarşı mübarizədə 1945-1954-ci illərdə Almaniyanın Münhen şəhərində fəaliyyət göstərən «Azadlıq» radiostansiyanın da rolu böyük olmuşdu. «Azadlıq» radiosunda Azərbaycan şöbəsinin redaktoru Ə.Fətəlibəyli-Düdənginski idi. Sovet rejiminə qarşı mübarizə aparanlardan biri də Mirzə Bala Məmmədzadə idi. Onun fəaliyyətində maarifçilik başlıca yer tuturdu. Ankarada M.B.Məmmədzadə Azərbaycan tarixinə dair bir neçə kitabı nəşr olunmuşdu. Dünya sosializm sistemi yarandı. 1946-cı ildən başlayaraq iki sistem – Dünya kapitalizm və Dünya sosializm sistemi arasında «soyuq» müharibə başladı. Digər tərəfdən, dünya sosializm düşərgəsinə rəhbərlik edən SSRİ-də, o cümlədən, onun tərkibinə daxil olan Azərbaycanda totalitar, inzibati idarə üsulu, həyatın bütün sahələrində kommunist ideologiyasının inhisarı daha da gücləndi. 50-ci illərin ikinci yarısı – 60-cı illərdə respublikanın həyatında siyasi sistemin təkmilləşdirilməsi ilə bağlı edilən cəhdlər mühüm yer tutur. Xüsusilə, İ.V.Stalinin ölümündən (1953-cü il 5 mart) sonra N.S.Xruşşov Sov.İKP MK katibi kimi nəzarət etdiyi partiya aparatının və ali hərbi rəhbərlərin köməyi ilə siyasi rəqiblərinə – L.P.Beriyaya, Q.M.Malenkova və digərlərinə qalib gələrək Sovet dövlətinə rəhbərliyi ələ keçirdi, 1953-cü ilin sentyabrında Sov. İKP MK-nın birinci katibi seçildi.

N.S.Xruşşov hakimiyyətdə olduğu (1953-1964) dövrdə nüfuzlu dövlət başçısı səviyyəsinə yüksələ bilmədi. Xaraktercə olduqca zəif olan Xruşşov partiya aparatında oyuncağa çevrildi. O, başladığı işləri sona çatdıra bilmədi. N.S.Xruşşov Stalinin şəxsiyyətinə pərəstişi tənqid etməklə, bu yolda bir sıra yarımçıq tədbirlər həyata keçirməklə özünü göstərməyə, tanınmağa, nüfuz qazanmağa çalışırdı. O, Sovet cəmiyyətində, siyasi sistemdə mövcud olan qüsurları Stalinin şəxsiyyətinə pərəstişlə bağlayır, partiya həyatında «Lenin normalarının» pozulmasının təzahürü kimi qələmə verməyə çalışırdı..

Nöqsanların, qüsurların böyük bir hissəsi Stalinin şəxsiyyətinə pərəstişdən irəli gəlmiş və bir qismi də Beriyanın himayəçiliyi ilə Azərbaycanda rəhbər partiya, dövlət vəzifələrinə soxulmuş məmurların, 1934-1953-cü illərdə Azərbaycana rəhbərlikdə birinci şəxs olmuş M.C.Bağırovun fəaliyyəti ilə bağlı olmuşdur.

M.C.Bağırovun cinayətkar əməli ilə görkəmli partiya və dövlət xadimləri (29 min nəfəri ziyalı olmuş), elm və mədəniyyət işçiləri, böyük mütəxəssislər həbs olunaraq məhv edilmişdir.

M.C.Bağırov cinayətkar əməllərinə görə 1953-cü ildə tutduğu vəzifəsindən uzaqlaşdırıldı. O, bir müddət Kuybışev Neft Birliyinin rəis müavini vəzifəsində işlədi və sonra Bakıda SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası tərəfindən mühakimə edilib, 1956-cı il aprel ayında xalq düşməni kimi ölüm cəzasına – güllələnməyə məhkum olundu. Məhkəmə prosesində M.C.Bağırov öz günahlarını etiraf edərək demişdi: «O illərdə Azərbaycan XDİK orqanları tərəfindən həbs olunmuş partiya-sovet fəallarının bu qədər çox olması mənə indi aydın olur. O vaxtlar mən bunu o qədər də hiss etmir, buna nəzarət etmir, MDİK-nin işini yoxlamırdım. Bu da kökündən səhv və yolverilməzdir. Ancaq bu, məhz belə olub. Mənim bu səhlənkarlığım ciddi tənbehə və cəzaya layiqdir».

M.C.Bağırov həm də qeyd edirdi ki, «Mənim əsas səhvim odur ki, Beriya və onunla bağlı olan və onun düşmən mövqeyini müdafiə edən orqanlarda birgə iş üzrə onunla uzun illər boyu əlaqədar olan Sumbatova, Borşevə, Qriqoriyana, Markaryana və digərlərinə göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inararaq XDİK orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqın qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq lazımdır, məni şaqqalamaq, parça-parça eləmək lazımdır».

Geniş repressiyalar dövründə respublikada bütün bu cinayətlərin törədilməsində günahlandırılan Bağırovla birlikdə onun ən yaxın əlaltıları – Azərbaycan SSR Fövqəladə Komissiyası, Baş Siyasi İdarəsi, Xalq Daxili İşlər Komissarlığı, Dövlət Təhlükəsizlik Nazirliyi orqanlarında məsul vəzifələrdə çalışmış Sumbatov-Topuridze, Atakişiyev, Markaryan, Qriqoryan, Borşev, Yemelyanov həbs edilib mühakimə olundular. SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası Borşev Timofey Mixayloviçi, Markaryan Ruben Ambarsumoviçi, Qriqoryan Xoren İvanoviçi güllələnməyə məhkum etdi. Məhkəmə prosesində Xoren Qriqoryanın 1937-ci ildə Bakıdan atasına yazdığı məktub oxundu. O, məktubda 100 nəfərin güllələndiyini, 500 nəfərin isə növbə gözlədiyini bildirmişdi. 1953-cü il martın 27-də SSRİ Ali Sovetinin amnistiya haqqında fərmanı oldu. Siyasi məhbuslar saxlanılan düşərgələrə rəhbərlik edən İslah Əmək Düşərgələri Baş İdarəsi – «QULAQ» ləğv edildi. Repressiyaya məruz qalanların işinə yenidən baxılması üçün komissiyalar yaradıldı. 1956-cı il iyunun 22-də SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası İsmixan Rəhimovun, Gülhüseyn Abdullayevin, Hacı Zeynalovun, Aydın Vahidovun, Azər Ələsgərovun, Musa Abdullayevin, Kamal Əliyevin, Kamil Rzayevin işlərində cinayət tərkibi olmadığı üçün Azərbaycan SSR Ali Məhkəməsinin 1949-cu il 21-22 mart tarixli hökmünü ləğv etdi.

1949-cu ildə H.N.Hüseynovun «XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən» adlı kitabı nəşr olunmuş və əsərdə Şeyx Şamil hərəkatı çar Rusiyasına qarşı milli-azadlıq hərəkatı kimi verilmişdi. Bu ideya M.C.Bağırovu möhkəmcə qəzəbləndirmişdi. O, H.Hüseynovun kitabına cavab olaraq «Müridizm və Şamilin hərəkatının xarakteri haqqında məsələyə dair» adlı məqalə çap etdirmişdi və H.Hüseynovun bu əsərini tənqid etməklə, ona iftiralar yağdırmış, Şeyx Şamili ingilis casusu adlandırmışdı. Hətta H.Hüseynov bütün vəzifələrdən azad edilmiş, ona verilən Stalin mükafatı geri alınmış, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlüyündən çıxarılmış, özü isə nəzarət altına götürülmüşdü. Bütün bunlara dözə bilməyən filosof intihar etmişdi.

1953-cü il iyulun 12-13-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Bakı Komitəsinin birləşmiş plenumu Sov. İKP MK iyul (1953-cü il) plenumunun yekunlarını müzakirə edərək Azərbaycan partiya təşkilatlarının işində mövcud olan nöqsanları, qüsurları aşkar etdi. Partiya təşkilatlarında kollektiv rəhbərlik prinsipinə əməl edilməsi, respublika Daxili İşlər Nazirliyinin, onun yerlərdəki orqanlarının fəaliyyətində nəzarətsizliyə son qoyulması tələbləri qarşıya qoyuldu. 1954-cü ilin fevralında Azərbaycan KP-nin XX qurultayında Azərbaycan KP MK-nın işi yartımaz hesab edildi.

Azərbaycan KP MK-nın plenumu İmam Daşdəmir oğlu Mustafayevi Azərbaycan KP MK-nın birinci katibi seçdi. (İmam Daşdəmir oğlu Mustafayev (1910-1997) Zaqatala qəzasının Qax kəndində anadan olub. O, Azərbaycan SSRİ EAnın akademiki (1950) olmuş, 1934-1940-cı illərdə AKTİ-də işləmiş, 1940-1953-cü illərdə Az.SSR Dövlət Nəzarəti Komissarının 1-ci müavini, Xalq Torpaq Komissarının 1-ci müavini, Az.SSR kənd təsərrüfatı naziri, AKP Gəncə

Vilayət Komitəsinin 1-ci katibi, 1954-1959-cu illərdə isə AKP 1-ci katibi işləmişdir). Sadıx Rəhimov Az.SSR Nazirlər Sovetinin sədri, yazıçı Mirzə İbrahimov isə Ali Sovetin Rəyasət Heyətinin sədri təyin olundular. Onu da qeyd edək ki, təkpartiyalı siyasi sistemdə yüksək hakimiyyət pilləsində olan rəhbərin şəxsi keyfiyyətlərindən çox şey asılı olur. Respublikanın ictimai-siyasi həyatında yeni bir mərhələ – milli oyanış, dirçəliş başladı. İ.Mustafayevin həyata keçirdiyi ən böyük tədbirlər-indən biri Bakı şəhərində əhalinin etnik tərkibində azərbaycanlıların sayının artırılması ilə bağlı gördüyü işlər idi. Belə ki, XX əsrin 50-ci illərinin əvvəllərində Bakı şəhərində azərbaycanlıların sayı o qədər də çox deyildi. Respublika rəhbərinin düzgün sosial və iqtisadi siyasəti nəticəsində Bakı şəhərində sənaye sürətlə inkişaf etdirilməklə çoxlu sayda yeni iş yeri açıldı. Kəndli gənclər bu iş yerlərinə cəlb olundu.

Bütün bunların nəticəsində Bakıda azərbaycanlıların sayı xeyli artdı, demoqrafik vəziyyət dəyişdi. Bu, Moskvanın, N.S.Xruşşovun və onun erməni dostlarının beynəlmiləl şəhər olan Bakını Azərbaycanın tərkibindən çıxarıb müstəqil inzibati bölgü kimi birbaşa Mərkəzə tabe etmək planını pozdu. 50-ci illərin ikinci yarısında görülən tədbirlər içərisində bir çox ziyalılarımızın, geniş xalq kütləsinin milli əhval-ruhiyyəsinin yaranmasına gətirib çıxaran hadisələrdən biri 1956-cı ilin avqustunda dil haqqında qanunun qəbul edilməsi oldu. Həmçinin, 1956-cı il avqustun 21-də Azərbaycan SSR Konstitusiyasına Azərbaycan SSR dövlət dili barəsində maddə əlavə edildi və həmin maddə aşağıdakı kimi yazıldı: Maddə 151. «Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir». Azərbaycan SSR ərazisində yaşayan millətlərin həm mədəniyyət idarələrində, həm də dövlət idarələrində ana dilini sərbəst inkişaf etdirmək və işlətmək hüququ təmin edildi. Azərbaycan SSR-in şəhər və kənd yerlərində yeddiillik ümumi təhsilin həyata keçirilməsi ilə əlaqədar, habelə orta məktəblərin yuxarı siniflərində, orta ixtisas məktəblərində və ali məktəblərdə təhsil pulunun ləğv edilməsilə əlaqədar olaraq, Azərbaycan SSR Konstitusiyasının 128-ci maddəsinə müvafiq dəyişikliklər edildi və 12-ci maddədə göstərildi ki, Azərbaycan SSR vətəndaşları təhsil hüququna malikdirlər.

Milli dilin, mədəniyyətin, milli dəyərlərin itib-batmaq səviyyəsinə çatdığı bir dövrdə bunları xilas etmək üçün Azərbaycan dili haqqında qanunun qəbul edilməsi çox böyük cəsarət idi. Rəsul Rza öz çıxışında yana-yana bildirirdi: «Doğma Azərbaycan dilinin formal yox, əsl həqiqətdə bütün həyat və işimizdə özünə layiq olan yeri tutmasını təmin etmək lazımdır. Milli siyasətimizin ruhuna uyğun olaraq dilimizin tərəqqi və inkişafı uğrunda mübarizə aparmaq lazımdır». Azərbaycan dili haqqında qanunun qəbul edilməsindən sonra Bəxtiyar Vahabzadənin «Gülüstan», Rəsul Rzanın «Qızıl gül olmayaydı» poemaları, İsa Hüseynovun ilk povestləri yazıldı. Respublikada rəsmi sənədlərin, kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün konkret tədbirlər görüldü. 1957-1959-cu illərdə «İncəsənət» almanaxı, 1958-ci ildə «Bakı» axşam qəzeti, uşaqlar üçün «Göyərçin» jurnalı nəşr olunmağa başladı. 1956-cı ildə Bakı televiziyası işə düşdü. Ali Sovetin Rəyasət Heyəti bir sıra fərmanlar qəbul etmişdi. Həmin fərmanlardan birinə əsasən 2 aprel 1956-cı ildə Dəstəfur rayonunun adı dəyişmiş və rayon mərkəzinin adına uyğun olaraq Daşkəsən rayonu adlandırılmışdı. Respublikada həm şəhərdə, həm də kənddə ümumi yeddillik təhsil həyata keçirilmiş, iri şəhərlərdə isə, əsasən onillik təhsil tətbiq olunmuşdu. Hökumətin qərarı ilə orta ixtisas məktəblərində və ali məktəblərdə təhsil pulu ləğv edilmişdi. Lakin bütün bu nailiyyətləri mərkəz qısqanclıqla qarşılayır, bu proseslərə rus şovinizminin gözü ilə baxırdı. Həmçinin Azərbaycanda milli dirçəliş meylləri mərkəzdə rus şovinizminin güclənməsinə səbəb olur və ciddi müqavimətə rast gəlirdi.

Azərbaycan dili haqqında qanun partiyanın milli yasətinə zidd hal kimi qiymətləndirildi və əhalidə millətçi əhval-ruhiyyə yaradılması kimi səciyyələndirildi. İ.Mustafayevə millətçi damğası vurulsa da, məhz o, Azərbaycana rəhbərlik etdiyi dövrdə (1954-1959-cu illər) öz əməli və dövlətçilik fəaliyyəti ilə dərin milli hisslərə malik dövlət rəhbəri olduğunu sübut etdi. O, kənd təsərrüfatına, sənayeyə, ideoloji işə rəhbərlik sahəsində, kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyəsi işində çox işlər görmüşdü. 1954-1958-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalında artım əvvəlki beşillik dövrünə nisbətən aşağıdakı
kimi olmuşdur: pambıq istehsalı - 28,5 faiz, taxıl – 19,2 faiz, tütün – 31,5 faiz, yaşıl çay yarpağı – 2,4 dəfə, üzüm – 1,5 dəfə, tərəvəz – 2 dəfə, barama – 11,2 faiz, süd istehsalı 1953-cü ildəkinə

nisbətən 1958-ci ildə 230 min tondan 402 min tona, ət istehsalı 50 min tondan 64,5 min tona, yun istehsalı 5,9 min tondan 8 min tona çatdırılmışdı. Mərkəz isə hər şeyi qeyri-obyektiv izah etməyə çalışıaraq texniki bitkilərin, xüsusilə də taxıl bitkilərinin daha sürətlə inkişaf etdirilməsində İmam Mustafayevin səhvə yol verdiyini iddia edirdi Son anda mərkəz İ.D.Mustafayevi vəzifədən götürmək qərarına gəldi. Bu cəza isə «əsaslandırılmalı» idi. Bu baxımdan da N.S.Xruşşovun göstərişi ilə Azərbaycan partiya təşkilatının işini yoxlamaq üçün Sov.İKP MK təşkilat şöbəsi müdirinin müavini Şikinin başçılığı ilə 26 nəfərdən ibarət komissiya göndərildi. Komissiya iftiralarla dolu, mərkəzi təmin edən bir hesabat yazdı. Yoxlamanın nəticələri Azərbaycan KP-də müzakirə olunmadan, Azərbaycan rəhbəriliyinə göstərilmədən Moskvaya təqdim edildi. Yoxlama materialları İ.D.Mustafayevi vəzifədən götürmək üçün əsas oldu. Yoxlamada önə çəkilən iradlardan bəzilərini xatırlatmaq yerinə düşərdi. Guya Azərbaycanda Əzizbəyovun ev-muzeyi əzəmətli bir binada yerləşdiyi halda, S.M.Kirovun adına olan muzey çox görkəmsiz bir binada yerləşir. Halbuki, Kirovun ev-muzeyi onun Bakıda yaşadığı ikimərtəbəli yaraşıqlı daş evdə olduğu halda, Əzizbəyovun ev-muzeyi birmərtəbəli binada, birbaşa küçədən girişi olan bir dəhlizdə yerləşirdi. İttihamlardan biri də o idi ki, Azərbaycanda guya oktyabr  inqilabının tarixi obyektiv öyrənilmir, yazılmır.
Daha sonra dil haqqında: guya Azərbaycan SSR Ali Sovetinin sessiyasının müzakirəsinə verilmiş qanun layihəsində deyilirdi ki, bütün məktəblərdə uşaqların təhsili ancaq Azərbaycan dilində aparılmalıdır.

Digər bir iradda göstərilirdi ki, başqa ittifaq respublikalarında neft sənayesi nazirliyi ləğv olunduğu halda, Azərbaycanda İ.D.Mustafayev onun ləğvinə imkan verməmişdir. Sənayedə isə «planların» yerinə yetirilməsi ilə kifa-yətlənilir. Bütün iradlar bu cür qeyri-obyektiv xarakter daşıyırdı. Guya əməkçi insanların beynəlmiləl tərbiyəsinə, xalqlar dostluğu ideyalarının təbliğinə də diqqət tələb olunan səviyyədə deyildi və s. İ.D.Mustafayevin vəzifədən uzaqlaşdırılmasına yuxarıdakı «səbəblərlə» yanaşı, N.S.Xruşşovun partiya, sovet və təsərrüfat orqanlarının əsassız olaraq yenidən qurulması, xalq təsərrüfatının planlaşdırılması ilə bağlı göstərişlərinin birmənalı qəbul edilməsi, Azərbaycanda ancaq pambıqçılığın yox, kənd təsərrüfatının başqa sahələrinin də inkişaf etdirilməsində təkid edilməsi və buna nail olunması və s. məsələlər də səbəb olmuşdur. O da məlumdur ki, «müttəfiq» respublikalara rəhbərlərin təyinatı və onların işdən azad olunması bilavasitə Moskvada həll edilirdi. Ancaq guya İ.D.Mustafayev 1959-cu ilin iyulunda keçirilən Azərbaycan KP MK IX plenumunun qərarı ilə vəzifədən uzaqlaşdırıldı. Azərbaycan KP MK IX plenumunda çıxış edən «deputat yoldaş»larının ikili xarakterə malik olmaları burada üzə çıxdı. Azərbaycan dili haqqında qanun qəbul edilərkən onlar İ.Mustafayevi alqışlamış, dilimizin zənginliyindən, üstünlüyündən danışmışdılar. Məsələn, Azərbaycan SSR Ali Sovetinin üçüncü sessiyasında Mirzə İbrahimovun çıxışından: «Biz hamımız - bütün məsul işçilərimiz ana dilini mükəmməl surətdə bilməlidir və ana dilini bilməmək eyibdir. Dövlət idarələrinin və ictimai təşkilatların ana dilində idarə olunması milli siyasətin tələbatı əsasında aparılan işlərdir». Cəfərovun çıxışından: «Sovet hakimiyyəti illərində xalqımızın əldə etdiyi böyük nailiyyətlərdən biri də budur ki, respublikada Azərbaycan dili dövlət dili səviyyəsinə qalxmışdır və şübhəsiz, bu vəziyyət getdikcə daha da
möhkəmlənəcəkdir. Bütün bunları nəzərə alaraq Azərbaycan dilinin respublikamızda dövlət dili olması barədə Konstitusiyamıza xüsusi bir maddə əlavə etmək məqsədəuyğundur».

Onu da qeyd etməliyik ki, Mirzə İbrahimov məşhur əsərlərindən biri olan «Azərbaycan dili» kitabını da həmin dövrdə (1957-ci il) yazmış, dilimizin zənginliyindən, onun mənəvi qüdrət və vüsətindən danışaraq göstərmişdir ki, Azərbaycan dili hər zorakı təsirə qarşı uzun əsrlər boyu ciddi mübarizə aparmış və həmişə qalib gəlmişdir. Bu dildə hələ yüz illər bundan əvvəl dünya ədəbiyyatı xəzinəsinin ən gözəl inciləri yaradılmış, böyük elmi əsərlər yazılmışdır. Çox təəssüf ki, bu dilin zənginliyindən danışmış Mirzə İbrahimov Mərkəzin təzyiqi nəticəsində öz fikrinin üstündə dayana bilməmiş, bu işdə İ.Mustafayevi günahlandırmışdı. Halbuki Azərbaycan dili haqqında qanunun qəbulunda Mirzə İbrahimovun xüsusi təşəbbüsü olmuşdu. Qanun da onun Ali Sovetin Rəyasət Heyətinə sədrliyi altında qəbul edilmişdi.

Mirzə İbrahimov Xruşşovun Azərbaycan SSR Ali Sovetinin sonuncu sessiyasında qəbul edilmiş təhsil sisteminin yenidən təşkil edilməsi haqqındakı qanunu, şagirdlərə dilin tədrisi məsələsinə tənqidi barədə «ədalətli olaraq bizim yoldaşı tənqid edib» söyləmişdi. İ.Mustafayev guya dil məsələsində çox inadkarlıq göstərib, heç kimi eşitməyib. Plenumda səslənən çıxışlarda göstərilirdi ki, İ.Mustafayev yalnız kənd təsərrüfatı mütəxəssisidir, təhsil, məktəb, dil məsələlərində təcrübəsizdir. Vəli Axundovun çıxışından belə aydın olurdu ki, Azərbaycanda dövlət dilinin Azərbaycan dili olması mərkəzin yeritdiyi siyasətin pozulması və İ.Mustafayevin, M.İbrahimovun siyasi cəhətdən yetkin olmamasının nəticəsidir. Plenum onu da qeyd etdi ki, radio verilişlərində respublikanın çoxmillətli əhalisi nəzərə alınmır. Respublika radiosunda verilişlərin efir vaxtı 13 saat nəzərdə tutulub ki, Azərbaycan dilində verilişlərə 12 saat on dəqiqə, rus və erməni dillərində isə 28 dəqiqə vaxt ayrılıb. Plenum bunu həmin xalqlara qarşı hörmətsizlik kimi qiymətləndirmişdi. Məhz bütün bunları nəzərə alan Mərkəz 1959-cu ilin iyul ayında İ.Mustafayevi millətçilikdə təqsirləndirərək Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində uzaqlaşdırdı. Vəli Axundov Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə təyin edildikdən sonra həyata keçirdiyi ilk tədbirlərdən biri kimi, Azərbaycan SSR-in təhsil haqqında 1959-cu il qanununa respublikada təhsilin rus dilində aparılmasına geniş imkan açan əlavələr edildi.

60-cı illərdə mərkəzi orqanların düzgün olmayan si-yasəti nəticəsində Ermənistanla Azərbaycan arasında münasibətlərdə yenidən gərginlik yarandı. Mərkəzdən müdafiə olunan, Mikoyan və Suslov kimi imperiya rəhbərlərinin dəstəklədiyi ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atdılar. Ermənistan Respublikasının və Azərbaycanın Dağlıq Qarabağ Vilayətinin erməni əhalisi Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə başladı. Həmçinin, Ermənistanda antitürk əhval-ruhiyyəsi yenidən qızışdı. «Qarabağ hərəkatı» gizli təbliğatdan açıq fəaliyyətə keçməyə başldı. Hətta «Qarabağ hərəkatı»na rəhbərlik edən «Daşnaksütyun» partiyasının qərarına görə, «Böyük Ermənistan» dövləti yaratmaq, bu işdə başlıca əngəl olan bütün türkdilli xalqları kölə vəziyyətinə salmaq, tədricən məhv etmək məqsədilə «Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu» (ASALA) – terrorçu siyasi silahlı təşkilatı yarandı. 1960-cı illərin sonunda ermənilərin tələbi ilə Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi hətta Sov.İKP MKnın müşavirəsində müzakirə edildi. Müşavirədə qızğın diskussiya oldu. İmperiyanın başçısı N.S.Xruşşov bu məsələnin arzuolunmaz nəticələrə gətirib çıxara biləcəyini dərk edə bildi və ermənilərin tələblərini rədd etdi. 1964-cü ilin əvvəlində SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri A.İ.Mikoyan 1954-cü ildə Krımın Ukraynaya birləşməsindən ruhlanaraq, hesab etmişdi ki, Dağlıq Qarabağı da Ermənistana vermək mümkündür. Bu baxımdan da o, Dağlıq Qarabağın Ermənistana verilməsini imperiya rəhbərindən – N.S.Xruşşovdan xahiş etmişdi. N.S.Xruşşov isə «müdriklik» göstərərək bildirmişdi ki, «mən DQMV ermənilərinin bir sutka ərzində Ermənistana köçürülməsi üçün 12 min hərbi yük maşını verməyə hazıram». Bütün bunlara baxmayaraq, ermənilərin Dağlıq Qarabağ niyyəti tamamilə məhv olmadı. Azərbaycanlılar öz vətənində – Dağlıq Qarabağda sıxışdırılırdı. 1967-ci ildə burada – Stepanakertdə (Xankəndində) azərbaycanlılara divan tutulmuş, bir neçə nəfər isə qətlə yetirilmişdi. Bütün bunlar Azərbaycanın dövlət başçısı V.Axundovun gözü qarşısında baş verirdi. Hətta onun razılığı ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarında 2 min hektardan çox Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ 1938-ci il mayın 5-də verilmiş qərarı təsdiq etdi, lakin 1969-cu ilin iyulunda Azərbaycanda hakimiyyətə gələn H.Ə.Əliyev bu qərarın icra olunmasına yol vermədi.

Sov.İKP MK-nın 1964-cü il 4 oktyabr plenumunda N.S.Xruşşov tutduğu vəzifədən uzaqlaşdırıldı. L.İ.Brejnev Sov.İKP MK-nın birinci katibi (1966-cı ildən baş katibi) seçildi. Partiya inzibati amirliyi yenidən gücləndi. Partiya, sovet, həmkarlar ittifaqları və komsomol orqanları təşkilatca yenidən ərazi prinsipi üzrə quruldu. Mərkəzdə gedən bu «yenidənqurma» öz təsirini Azərbaycana da göstərdi. 50-ci illərdəki demokratik meylləri yenidən inzibati amirlik əvəz etməyə başladı. Respublikanın iqtisadi və sosial hüquqları yenidən pozuldu.

## 1. 1948-1953-cü illərdə azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından növbəti deportasiyası

Sovet hakimiyyətinin ölkənin müxtəlif regionlarında, o cümlədən Qafqazda Azərbaycan, erməni, gürcü və başqa xalqları bir-birinə qarşı qoymaq siyasəti çar Rusiyasının məqsədli siyasətinin davamı idi. Bu siyasət mərkəzə qeyri-rus xalqlar, xüsusilə də müsəlman və türklər üzərində öz hakim mövqeyini qoruyub saxlamaq üçün lazım idi. Azərbaycanlılar və digər türklər yaşayan torpaqların işğalı hesabına «Böyük Ermənistan» dövləti yarartmaq xəstəliyinə tutulan ermənilər özlərinin heç vaxt mümkün olmayacaq məqsədlərinə çatmaq üçün bütün vasitələrdən istifadə etməyə çalışırdılar.

Moskvadakı havadarlarının köməyi ilə mərkəzdəki və xarici ölkələrdəki erməni və ermənipərəst lobbilərinə arxalanan erməni – daşnaklar müharibədən sonrakı illərdə də vaxtaşırı azərbaycanlıların Ermənistan SSR-dəki öz tarixi etnik ərazilərindən sıxışdırılıb çıxarılması, ilk növbədə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə çıxış edirdilər. 40-cı illərin ortalarında Mərkəzin, bilavasitə Moskvadakı erməni lobbisinin lideri və rəhbəri A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda kommunistlərin fəal iştirakı ilə gizli «Qarabağ hərəkatı» və «Qarabağ komitəsi» yaradılmışdı. 1945-ci ilin payızında Ermənistan rəhbərliyi partiya elitasının köməyi ilə növbəti dəfə ÜİK(b) P MK qarşısında Azərbaycan torpaqlarının bir hissəsinin – Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırdı. Ermənistan K(b) P MK və XKS Stalinə müraciət edərək heç bir elmi, tarixi əsası olmadan bildirdilər ki, Dağlıq Qarabağ ərazisi guya iqtsadi cəhətdən daha çox Azərbaycanla deyil, Ermənistanla bağlıdır. Mərkəzdə bu məsələyə dərhal münasibət bildirildi. Belə ki, Moskvanın nümayəndəsi ÜİK(b) P MK katibi ermənipərəst K.M.Malenkov 28 noyabr 1945-ci ildə Azərbaycan K(b) MK-nın 1-ci katibi Mircəfər Bağırova məktub yazaraq bu məsələ haqqında – ermənilərin istəyi ilə bağlı məlumat verir və onun rəyini bilmək istəyir. M.Bağırov isə öz növbəsində 10 dekabr 1945-ci il tarixdə K.M.Malenkovun məktubuna cavab göndərir. Cavab məktubunda Ermənistanın Dağlıq Qarabağla bağlı irəli sürdüyü bu iddiaların heç bir elmi, tarixi əsası olmadığı və Dağlıq Qarabağın Azərbaycanın qədim torpağı olduğu sanballı faktlarla sübut edilirdi. M.Bağırov bildirirdi ki, əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Şuşadan başqa, Yuxarı Qarabağ ərarizisi o halda Ermənistana verilə bilər ki, Zəngəzur bölgəsi bütövlüklə Azərbaycana qaytarılsın. Buna isə nə Moskva, nə də Ermənistan razı olmadı, çünki Türkiyə ilə Azərbaycan hesabına yaradılmış «erməni ərazisi» bununla ləğv edilərdi.

Sovet hakimiyyəti dövründə ilk dəfə olaraq Azərbaycan rəhbərlərindən M.Bağırov itirilmiş tarixi Azərbaycan torpaqları problemini önə gətirir. O, K.M.Malenkova cavab məktubunda bildirir ki, Dağlıq Qarabağın Ermənistana güzəştə gediləcəyi halda müxtəlif zaman kəsiyində Ermənistana, Gürcüstana və Rusiyaya verilmiş bir çox tarixi Azərbaycan torpaqlarının onun özünə qaytarılmasını qətiyyətlə tələb edir.

M.Bağırov yaxşı bilirdi ki, ermənilər buna razı olmayacaq və həm ermənilərin, həm də havadarlarının – Moskvanın planı pozulacaq. Moskva problemin nə qədər təhlükəli olduğunu anladı. Problemin həllini mümkün hesab etməyən Mərkəz ermənilərin iddialarını rədd etdi. Bununla yanaşı, Moskva Türkiyə ilə sərhəddə ermənilərin mövqeyini möhkəmləndirmək üçün işə başladı. Hələ 1943-cü il noyabrın 28-dən dekabrın 1- dək SSRİ, ABŞ və İngiltərənin iştirakı ilə Tehranda keçirilən konfransda Sovet-İran məsələsi müzakirə edilərkən ermənilərlə bağlı məsələyə toxunulmuşdur. Belə ki, gələcəkdə «Böyük Ermənistan» dövləti yaratmaq arzusunda olan ermənilər konfrans zamanı SSRİ xarici işlər naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsini xahiş etmişdilər. V.Molotov İ.Stalinin razılığını aldıqdan sonra İranda yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsinə icazə verilmişdi. 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi haqqında qərar qəbul edildi. Bu köçürülmə azərbaycanlıların yaşadıqları torpaqların boşaldılması hesabına həyata keçirilməli idi. Yəni azərbaycanlıların öz ata-baba torpaqlarından qovulması və onların yaşadıqları əraziyə köçürülən ermənilərin yerləşdirilməsi nəzərdə tutulurdu. Bu işə «Daşnaksütyun» partiyası ilə birlikdə Qriqorian kilsəsi də öz xeyir-duasını vermişdi.

Lakin Molotovun təklifi o zaman Ermənistan KP MK-nın 1-ci katibi Q.H.Harutyunovla Stalinin razılığa gəlməsindən sonra xeyli dəyişdirildi. Qərara alındı ki, köçürüləcək ermənilər Ermənistanda yerləşdirilsinlər, əvəzində isə Ermənistan SSR ərazisində yaşayan azərbaycanlılar Azərbaycana köçürülsünlər. Bununla da Mərkəzin rəhbərliyi və xeyir-duası ilə azərbaycanlıların Ermənistan SSR ərazisindəki ata-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. Köçürülmənin həyata keçirilməsi 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» qəbul etdiyi 4083 saylı qərarla rəsmiləşdirildi. Daha sonra SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında» yeni bir qərarı ilə bu prosesin həyata keçirilməsini sürətləndirmək üçün konkret tədbirlər planı hazırlandı. Qərarda göstərilirdi ki, bu, «SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarına əlavədir». Bu qərara görə, 100 min azərbaycanlı 1948-1950-ci illərdə; 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər «könüllülük prinsipinə əsasən» Azərbaycana köçürülməli idi. Qərarın on birinci maddəsində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlıların köçürülməsi ilə bağlı onların boşaltdıqları tikililərdən, yaşayış evlərindən xarici ölkələrdən Ermənistan SSR ərazisinə köçürülən erməniləri yerləşdirmək üçün istifadə etsinlər.

O zaman Ermənistan SSR-də öz ata-baba torpaqlarında 0,5 (yarım) milyondan çox azərbaycanlı yaşayırdı. 1948-ci ildə Ermənistan SSR-dən planlı və mütəşəkkil şəkildə Azərbaycan SSR-ə 1.799 təsərrüfat, 7.747 nəfər azərbaycanlı köçürülmüşdü. Köçürülmə zorakılığa, təzyiqlərə məruz qalmaqla həyata keçirilirdi. Bu üsulla 1948-ci ildə 429 azərbaycanlı ailəsi (2.834 nəfər) pərakəndə halda Azərbaycana köçürülmüşdü. 1948-ci ilin payızına qədər köçürülənlərin sayı 10.584 nəfərə çatmışdı.

Azərbaycan SSR və Ermənistan SSR rəhbərləri arasında (respublika əhalisinin rəyi nəzərə alınmadan) əldə olunmuş razılaşmaya görə, 1949-cu ildə 15.713 nəfər (5420 nəfər yazda, 10.293 nəfər isə payızda) və 3818 təsərrüfat köçürülməli idi. Lakin SSRİ Nazirlər Soveti Azərbaycan SSR və Ermənistan SSR hökumətləri arasında əldə edilmiş razılaşmanı təsdiq etmədi. Mərkəzin rəsmi nümayəndəsi S.Çeremuşin Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevdən Ermənistan SSRdən Azərbaycana əvvəlcədən müəyyənləşdirilmiş 40.000 nəfər azərbaycanlının köçürülməsini tələb etdi. Azərbaycan hökuməti vəziyyətin çətinliyini görüb Mərkəzi hökumətə – SSRİ Nazirlər Soveti sədrinin müavini K.M.Malenkova müraciət etdi. Müraciətdə bildirildi ki, bir dəfəyə 40.000 nəfər əhalinin köçürülməsi və yerləşdirilməsi üçün Azərbaycanın imkanı yoxdur. Müraciətdə həm də 1949- 1950-ci illər üçün əvvəllər müəyyənləşdirilmiş köçürülmə planlarına yenidən baxılması və «Ermənistan SSR-dən olan azərbaycanlı kolxozçuların və digər əhalinin 10 min nəfərinin 1949-cu ildə, 15 min nəfərinin isə 1950-ci ildə köçürülməsinə icazə verilməsi» xahiş edildi.

Bu məsələdə Azərbaycan rəhbərliyi qətiyyətsizlik göstərdi. Köçürülməsi nəzərdə tutulan əraziyə Ermənistanın 22 rayonu, əsasən azərbaycanlıların ata-baba torpaqları olan Basarkeçər, Zəngibasar, Noyemberyan, Mikoyan, Dilican, Astarxan, Kirovakan daxil idi. Bu ərazilər azərbaycanlıların yığcam şəkildə yaşadıqları dağlıq və dağətəyi bölgələrdən ibarət idi. Ermənistan SSR-dən köçürülən azərbaycanlılar Azərbaycan SSR-in Kür-Araz ovalığında və digər rayonlarda yerləşdirilirdilər. Deportasiya edilmiş azərbaycanlılar Kür-Araz ovalığında yaşayan ermənilər tərəfindən təqib olunurdular. Bu cür böhtanlar nəticəsində ermənilər Azərbaycan SSR Şamxor (Şəmkir) rayonuna deportasiya edilmiş 150 nəfər azərbaycanlının öz təsərrüfatları ilə birlikdə ra-yondan sürgün edilməsinə nail olmuşdular. Ermənilərin Azərbaycanda özbaşınalığına respublika rəhbərinin gözü qarşısında şərait yaradan respublikanın XDİN-də, partiya və sovet orqanlarında rəhbər vəzifə sahibi olan Markaryan, Qriqoryan, Yemelyanov, Borşov və başqaları idi. Onlar deportasiya olunan azərbaycanlıların ermənilərin sıx yaşadıqları Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində və onun ətraf rayonlarda yerləşdirilməsinə imkan vermiş, M.Bağırova saxta, böhtan xarakterli arayışlar təqdim edirdilər. Respublika Təhlükəsizlik Nazirliyinin rəhbəri Yemelyanovun hazırlayıb M.Bağırova təqdim

etdiyi rəsmi arayışda deportasiya olunan azərbaycanlıların ermənilər tərəfindən sıxışdırılmaları barədə kollektiv imza ilə göndərdikləri məktub və ərizələri «millətçilik», «siyasi təxribat» kimi xarakterizə edilirdi. Bunlara isə M.Bağrov inanırdı.

Beləliklə, 1949-cu ildə Ermənistan SSR ərazisindən – qədim Qərbi Azərbaycan torpaqlarından 15.276 nəfər adam Şimali Azərbaycana deportasiya edildi. Deportasiya olunanlar Şimali Azərbaycanın Saatlı, Mirbəşir (Tərtər), Göyçay, İmişli, Əli-Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (Beyləqan), Yevlax, Ucar, Bərdə, Gədəbəy rayonlarında yerləşdirildi. Ən çətini, dözülməzi ondan ibarət idi ki, dağlıq və dağətəyi ərazilərdə dünyaya göz açıb, yaşayan bu əhali indi birdən-birə çox isti olan Kür-Araz ovalığına köçürülürdü. Sonrakı ildə – 1950-ci il martın 14-də və avqustun 25-də daha 3419 təsərrüfatın və 14.361 nəfər azərbaycanlının Ermənistan SSR-dən Azərbaycana köçürülməsi haqqında Azərbaycan və Ermənistan respublikalarının hökumətləri birgə qərar qəbul etdilər.

Bütün bunlara baxmayaraq, erməni millətçiləri, onların himayədarları SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarlarının icra olunması vəziyyətindən narazılıq edirdilər. Nəticədə, onların təkidi ilə 28 fevral 1951-ci ildə SSRİ Nazirlər Soveti «1951-ci ildə köçürülmə planı haqqında» 605 saylı tam məxfi olan yeni qərar qəbul etməli olmuşdu. Qərarda köçürülmənin sürətləndirilməsi və qısa müddətdə başa çatdırılması öz əksini tapmışdı. Lakin bu qərar da erməniləri təmin etmədi. Çünki erməni millətçilərinin istəyinə rəğmən deportasiya olunanların geriyə qayıtması ara vermir, əksinə, artırdı. 1952-1953-cü illərdə Ermənistan SSR ərazisindən daha 3155 təsərrüfat və 1.376 nəfər azərbaycanlı Azərbaycana köçürüldü. Bununla yanaşı geri qayıdanların sayı da artırdı. Bunun başlıca səbəbi Azərbaycanın Kür-Araz ovalığında adi şəraitin olmaması idi.

Dövlət sənədlərində göstərilir ki, 1953-cü ildə köçürülənlərdən 1115 ailə geri qayıtmışdı. Beləliklə, 1948-1953-cü illərdə Ermənistan SSR ərazisində yaşayan 150 min nəfər azərbaycanlı öz doğma torpaqlarından zorla köçürüldü. Bu, mərkəzin və Ermənistan hökumətinin qeyri-insani fəaliyyətindən, qatı millətçilikdən, şovinist münasibətdən başqa bir şey deyildi. Bu, adi insan hüquqlarının kobudcasına pozulması, anti-demokratik hərəkət idi. Köçürülmə sonrakı illərdə də davam etdi. 1954-1956-cı illərdə 1316 təsərrüfat, 5876 nəfər azərbaycanlı Ermənistandan deportasiya olunmuş, etnik təmizləmənin növbəti ərhələsi keçirilmişdi.

80-ci illərin sonunda isə soydaşlarımız Ermənistan SSRdən sonuncu nəfərinədək zorla qovuldu və ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə sona çatdırıldı. Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın faciəsinə düzgün qiymət ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti, ümummilli liderimiz Heydər Əliyev tərəfindən verildi. O, 1997-ci il dekabrın 18-də «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» fərman imzalandı. Bu fərmanla Ermənistan SSR ərazisində azərbaycanlılara qarşı tətbiq edilən etnik təmizləmə və soyqırımı siyasətinin mürtəce mahiyyəti dünya sivilizasiyasına çatdırıldı.

**«1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası Şimali Azərbaycan İkinci dünya müharibəsindən sonrakı dövrdə (1946-1960-cı illərdə) haqqında» Azərbaycan Respublikası Prezidentinin FƏRMANI**

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələləri həll etsin. **Heydər ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 19 dekabr 1997-ci il.**

1941-1945-ci illərdə Azərbaycan öz milli sərvətlərinin üçdə – bir hissəsindən məhrum edildi. Müharibə zamanı adamlar doğmalarını, yaxınlarını itirmiş, sahibsiz uşaqların, başsız ailələrin sayı artmışdı.

Sənayenin istehsalı, o cümlədən aparıcı sahə olan neft hasilatı və emalı 2,1 dəfə azalmışdı. Kənd təsərrüfatı sahəsində də istehsalın dinamikası aşağı düşmüşdü. Respublikanın xalq təsərrüfatının bərpası işinə müharibənin gedişində, hələ işğal olunmuş ərazilər azad edilərkən başlanılmışdı. 1945-ci il mayın 26-da SSRİ Dövlət Müdafiə Komitəsi «Silah istehsalının azaldılması ilə əlaqədar olaraq sənayeni yenidən qurmaq sahəsində tədbirlər haqqında» qərar qəbul etdi. Azərbaycan hökuməti respublika xalq təsərrüfatının, xüsusilə neft sənayesinin bərpası və inkişafı üçün xeyli işlər gördü. Azərbaycanda neft sənayesinin bərpası və inkişaf etdirilməsində Mərkəz də çox maraqlı idi. Odur ki, 1945-ci il mayın 28-də SSRİ DMK «Bakıda neft hasilatını artırmaq tədbirləri haqqında» qərar qəbul etdi. Bu, hər şeydən əvvəl, mərkəzin Azərbaycanın sərvətlərini acgözlüklə istismar etməsinə yönəldilmişdi.

1946-cı ildən başlayaraq respublikanın neft mədənlərində turbin qazma üsulu genişləndirilməyə başladı. Beləliklə, Azərbaycan neftçilərinin çox gərgin əməyi nəticəsində onların qazdığı kəşfiyyat quyusu 1949-cu il noyabrın 7-də fontan vurdu. Dəniz neft yataqlarında qazma işlərini genişləndirmək üçün 1949-cu ildə «Azneft» Birliyi nəzdində «Dəniz qazma» tresti yaradıldı. Həmin il mayın 7-də SSRİ Nazirlər Soveti «Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşfini və işlənməsini üzən vasitələrlə təmin etmək haqqında» qərar qəbul etdi.

1955-ci ilin iyulunda Sov. İKP Mərkəzi Komitəsi istehsalın texniki səviyyəsini yüksəltməyə dair xüsusi proqram qəbul etdi. Xalq təsərrüfatının idarə edilməsi yenidən qurulmağa başladı. 1956-cı ilin mayında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarı ilə xalq təsərrüfatının idarə olunmasında müttəfiq respublikaların rolu artırıldı. Əsaslı tikinti, maddi-texniki təchizat, əmək məhsuldarlığı, məhsulun maya dəyəri və satışı, habelə maliyyə məsələləri ilə indi respublikalar özləri məşğul olmağa başladılar. Kənd təsərrüfatı idarələri ləğv edildi.

Sov. İKP MK-nın 1957-ci il fevral plenumunun və SSRİ Ali Sovetinin həmin ilin mayında keçirilən sessiyasının qərarlarına əsasən, sənaye və tikintinin idarə olunması yenidən qurulmağa başladı. Təsərrüfat nazirlikləri ləğv edildi. Operativ idarəçiliyin mərkəzdən yerlərə verilməsi üçün iqtisadi rayonlarda Xalq Təsərrüfatı Şurası yaradıldı və 400-dən çox sənaye müəssisəsi onun ixtiyarına verildi. Sənaye məhsulunun, demək olar ki, hamısı respublikaya tabe olan müəssisələrdə istehsal olunurdu. SSRİ Ali Sovetinin 1958-ci il 31 mart tarixli qanununa əsasən, MTS ləğv olunmuş, onların texnikası kolxozlara satılmışdı. Bu, təsərrüfatların iqtisadi vəziyyətini xeyli pisləşdirmişdi.

1954-1955-ci illərdə respublikaların, demək olar ki, bütün sənaye sahələri dövlət plan və tapşırıqlarının yerinə yetirilməsini təmin etmişdi. 1955-ci ilə nisbətən 1957-ci ildə sənayenin ümumi məhsul istehsalı 43,5 faiz artmışdı. Respublikada sənayenin əsas sahəsi olan neft sənayesi ilə yanaşı, qara və əlvan metal sənayesi, kimya sənayesi, enerji istehsalı sənayesi də sürətlə inkişaf etmişdi. Ağır sənayenin inkişaf etdirilməsi ilə bərabər, yüngül və yeyinti sənayesinin inkişafına da böyük diqqət verilirdi.

Dəniz neft yataqlarının istismarı üçün «Azneft» Birliyi nəzdində «Dəniz qazma» tresti yaradıldı. 1949-cu il oktyabrın 31-də SSRİ Nazirlər Sovetinin qəbul etdiyi qərarların, həmçinin 1950-ci ildə SSRİ hökumətinin qərarı ilə yeni neft Birliyinin - «Azərdənizneft»in yaradılmasının mühüm əhəmiyyəti oldu. Azərbaycan neft sənayesinin inkişafında 1953-cü ildə neftçıxarma sənayesinə rəhbərlik edən üç birliyin – «Azdənizneft», «Azneftkəşfiyyat» və «Azneft» Birliyində birləşdirilməsinin, 1954-cü ildə isə Azərbaycan SSR Neft Sənayesi Nazirliyinin yaradılmasının çox böyük əhəmiyyəti oldu.

1954-cü il iyunun 9-da SSRİ Nazirlər Sovetinin «SSRİ neft sənayesinin daha da inkişaf etdirilməsinə dair tədbirlər haqqında» qəbul etdiyi qərara uyğun olaraq, əsas diqqət SSRİnin yeni neft rayonlarının yaradılmasına yönəldildiyi halda, Azərbaycan neft sənayesinə diqqət azaldı və Azərbaycan neft hasilatı üzrə SSRİ-nin ən perspektivsiz rayonları sırasına daxil edildi.

Görülmüş tədbirlər nəticəsində 50-ci illərdə Xəzər dənizində neft sahələrinin aşkar edilməsi və işlənməsi xeyli sürətləndi. Darvin bankası, Cilov adası, Neft daşlarının şimalşərq hissəsi, Qum adası və digər neftli yataqların istismarına başlanıldı ki, bu da dənizdə neft hasilatının sürətlə artmasına səbəb oldu. 1960-cı ildə neft hasilatı 17,8 mln. ton təşkil etmişdir.

60-cı illərdə respublika sənayesində aparıcı sahələrdən biri neft-maşınqayırma sənayesi idi. Bu sahədə xeyli irəliləyişlər baş vermişdi. Azərbaycan maşınqayırma sənayesi öz məhsullarını təkcə respublikaya deyil, həmçinin bütün SSRİyə ixrac edirdi.

Respublikada maşınqayırmanın yeni sahələri meydana gəlmişdi. 1954-cü ildə «Mingəçevir kəndmaş» kənd təsərrüfatı maşınqayırma zavodu işə salındı. 50-ci illərdə Bakıda güclü ekskavator təmir zavodu, elektrotexnika sənayesinin «Azərkabel» zavodu, «Azərneftkəşfiyyat» təmir-mexaniki zavodu bazasında «Bakıqazaparat» zavodu, Bakı elektrik təmiri zavodu, Mingəçevir SES-in birinci növbəsi işə salındı. 50-60-cı illərdə Azərbaycanda enerji istehsalı, əhalinin enerjiyə olan təminatı xeyli gücləndi. 1954-cü ildə Şüvəlanda «Şimal» DRES fəaliyyətə başladı. 1959-cu ildə Əli-Bayramlıda yeni istilik-elektrik stansiyası istismara verildi. Respublikada ilk dəfə 20 kilovatlıq Mingəçevir-Xırdalan elektrik xətti çəkildi.

XX yüzilliyin 60-cı illərinin sonunda, demək olar ki, bütün mikroiqtisadi və digər istehsal göstəricilərinə görə, Azərbaycan keçmiş ittifaqın bütün müttəfiq respublikaları içərisində sonuncu pillədə dururdu. 1969-cü ilin iyul plenumunda V.Axundovun fəaliyyəti tənqid olundu və o, Azərbaycan KP MK-nın birinci katibi vəzifəsindən azad edildi, plenum H.Ə.Əliyevi Azərbaycan KP MK-nın birinci katibi seçdi. H.Ə.Əliyevin Azərbaycana rəhbərliyi dövründə – 1969-1982-ci illərdə respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş verdi.

60-cı illərin sonunda əhalinin sayı artaraq 5 milyonu ötüb keçmişdi. 70-ci illərin əvvəllərində isə bu rəqəm 5.117 mln. nəfər olmuşdu

Respublikanın 15 ali məktəbində 92 ixtisas üzrə 34 mindən artıq tələbə oxuyurdu. Ali məktəblər hər il 5000-ə qədər mütəxəssis buraxırdı.

1956-cı il fevradın 14-də Azərbaycan televiziyası fəaliyyətə başlamış, Bakıda və Naxçıvanda televiziya studiyaları istifadəyə verilmişdi.

50-ci illərin əvvəllərində Bakı şəhərində azərbaycanlılar əhalinin az hissəsini təşkil edirdi. Sənayenin sürətlə inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin buraya axını nəticəsində, Bakıda azərbaycanlıların sayı xeyli artdı, demoqrafik şərait dəyişdi. 50-ci illərin sonlarında respublika əhalisinin sayı müharibədən əvvəlki səviyyəyə çatmışdı. 1959- cu illərin əvvəllərində Azərbaycanda 3.698 min nəfər yaşadığı halda, 60-cı illərin axırlarında bu rəqəm 5 milyonu ötüb keçmişdi. Respublika əhalisinin sosial tərkibində də mühüm dəyişikliklər baş vermişdi. Şəhər əhalisinin sayı artmışdı. 70-ci illərin əvvəllərində respublika əhalisinin yarısı şəhərlərdə yaşayırdı. Bu illərdə sənaye müəssisələri və sovxozların inkişafı ilə əlaqədar fəhlələrin sayı çoxalmış, kolxozçu kəndlilərin sayı isə, əksinə, xeyli azalmışdı. 60-cı illərin axırında Azərbaycan SSR-də əmək qabiliyyətli əhalinin 72,5 faizi ictimai müəssisələrdə fəaliyyət göstərirdi. Şəhər yerlərində yaşayan əhalinin 62,1 faizi, kənd əhalisinin isə 53 faizi əmək qabiliyyətli yaşında olan adamlar idi. Bu illərdə Azərbaycanda 45 şəhər, 116 şəhərtipli qəsəbə mövcud idi.

XX yüzilliyin 60-cı illərinin sonuna yaxın Azərbaycanın sosial-iqtisadi həyatını dərin böhran bürüdüyü, olduqca mürəkkəb, ağır bir şəraitdə, respublikamızın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş Sovetlər Birliyində sonuncu yerdə olduğu bir zamanda, 1969-cu ilin iyulunda hakimiyyətə gələn Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etmişdir. Uzun illər Dövlət Təhlükəsizlik Komitəsində işləyən, 1967-1969-cu illərdə bu orqana rəhbərlik edən Heydər Əliyev respublikada idarəçiliyi gücləndirməyə, rüşvətxorluğa, korrupsiyaya qarşı barışmaz mübarizə aparmağa başladı. Heydər Əliyev mərkəzdəki nüfuzundan respublikanın sosial-iqtisad  mədəni inkişafı üçün səmərəli istifadə etməyə çalışırdı.

Heydər Əliyevin təşəbbüsü ilə 1969-cu il avqustun 5-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (Azərb.KP MK) plenumu oldu. Burada Azərbaycanın tarixində ilk dəfə olaraq respublikanın sosial-iqtisadi, siyasi və mədəni həyatı dərindən, hərtərəfli təhlil olundu, uzun illərdən bəri yığılıb qalmış problemlər müzakirə eldildi və çıxış yolları müəyyənləşdirildi. Həmin vaxtdan da Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başladı. Cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünə qayıdışa dönüş mərhələsinin başlanğıcı qoyuldu. 1969-cu ildən respublikanın ictimai-siyasi, iqtisadi və sosial-mədəni həyatında intibah dövrü başlandı. Az müddətdə respublikanın idarəçilik sistemi xeyli

möhkəmləndirildi. Heydər Əliyev Sovetlər Birliyində, onun mərkəzi aparatında işgüzar, prinsipial bir dövlət xadimi kimi böyük nüfuz qazandı, o, fenomenal siyasi və dövlət xadiminə çevrildi. Onun Azərbaycana rəhbərlik etdiyi birinci mərhələ – 1969-1982-ci illər XX əsr Azərbaycanının ictimai-iqtisadi, siyasi və mədəni inkişaf tarixində ən parlaq dövr hesab edilir. Bu illərdə əldə edilmiş uğurlar, Heydər Əliyevin uzaqgörən siyasətinin düzgünlüyünü və həyatiliyini göstərir. 1969-1982-ci illərdə Azərbaycan SSR-də qazanılan nailiyyətlər müstəqil Azərbaycan Respublikasında hüquqi, dünyəvi və demokratik dövlət quruculuğu üçün mühüm təməl oldu.

Heydər Əliyev kiçik fasilələrlə XX əsrin son otuz ilində Azərbaycana rəhbərlik etmişdir (1969-1982-ci illər və 1993-2003- cü illərdə Azərbaycana rəhbərlik etmiş, 1982-1987-ci illərdə SSRİ Nazirlər Sovetinin birinci müavini işləmiş, iyun 1990-1993-cü illərdə isə Naxçıvan MR Ali Məclisinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini olmuşdur). Heydər Əliyev hakimiyyətə gəldiyi vaxtdan respublikanın bütün təşkilatlarını dövlət və əmək intizamını möhkəmləndirməyə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmağa çağırırdı. O, Azərbaycan KP MK-nın plenumlarında, qurultaylarında, zona müşavirələrində və digər toplantılarda etdiyi məruzə və çıxışlarında, bir qayda olaraq, təsərrüfat və mədəni quruculuq məsələlərini təhlil edir, nöqsanları aşkarlayır, onları aradan qaldırmağın yollarını müəyyənləşdirirdi. Bu illər Azərbaycanın iqtisadi, ictimai-siyasi həyatında dönüş başladı, respublikanın dinamik inkişafı üçün kompleks proqramlar hazırlandı. Azərbaycan Kommunist Partiyası XXVIII qurultayının qəbul etdiyi qətnamədə deyilirdi: «Partiya, sovet və təsərrüfat orqanlarının fəaliyyətində yol vermiş böyük nöqsanlar, mədəniyyət və təsərrüfat quruculuğu işlərində, kadrların seçilməsində və yerləşdirilməsində respublikanın əvvəlki rəhbərliyi tərəfindən buraxılmış ciddi səhvlər nəticəsində respublika iqtisadiyyatı uzun müddət ləng, ittifaq üzrə orta səviyyədən xeyli geri qalan bir sürətlə inkişaf etmişdir, sənaye və kənd təsərrüfatı istehsalının tam bir sıra göstəriciləri üzrə Azərbaycan SSR ölkədə axırıncı yerlərdə olmuşdur».

1969-cu il avqust plenumunda, sonrakı plenum və qurultaylarda, müşavirələrdə Heydər Əliyevin çıxışlarında, nitqlərində respublikanın iqtisadi, siyasi həyatında mövcud olan vəziyyət təhlil edilmiş, rəhbərlik prinsiplərində ciddi dəyişikliklər olunmuş, kadrlara qarşı tələbkarlıq gücləndirilmişdi. Tezliklə mərkəzdə böyük nüfuz qazanan, öz rəhbərlik prinsipləri ilə fərqlənən Heydər Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd və 1982-ci ildə Sov.İKP MK Siyasi Bürosuna üzv seçilmişdir. Heydər Əliyevin hakimiyyəti dövründə (1969-1982-ci illərdə) 250-dən çox zavod, fabrik, istehsal sexləri və digər istehsal müəssisələri istifadəyə verilmiş, 630 min yeni iş yeri açılmışdı. Müasir istehsal sahələri yaradılmış, metallurgiya, radiotexnika elektrotexnika sahələri inkişaf etdirilmişdi. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı nəticəsində yapon texnologiyası əsasında məişət kondisionerləri zavodu tikilib istifadəyə verilmişdir. Bakı, Gəncə, Sumqayıt və digər şəhərlərdə yeni istehsal sahələri açılmış, abadlaşdırma aparılmışdı.

1969-1982-ci illərdə Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə əldə edilən sosial-iqtisadi nəticələr XX əsrin 90-cı illərinin ortalarından başlayaraq respublikamızda müstəqil dövlət quruculuğunun həyata keçirilməsində bünövrə rolunu oynamışdır. XX əsrin 70-80-ci illəri Azərbaycanın tarixində ən parlaq zaman kəsiyidir. 70-ci illərin əvvəllərindən başlanan iqtisadi inkişaf, sosial, milli-mədəni dirçəliş, milli özünüdərk getdikcə gücləndi və 80-ci illərin sonlarından başlanan milli dövlətçilik ideyasının formalaşmasına, milli-azadlıq mübarizəsinə böyük təsir göstərdi.

1982-ci ildə Heydər Əliyev görkəmli, böyük iş təcrübəsinə malik, mərkəzdə böyük nüfuzu olan bir siyasi xadim kimi Sovetlər Birliyində yüksək vəzifəyə seçildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 noyabr 1982-ci il tarixli qərarı ilə Heydər Əlirza oğlu Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi və 1987-ci il oktyabrın 21-ə kimi bu vəzifədə yüksək bacarıqla işlədi.

1987-ci il oktyabrın 21-də Sov.İKP MK-nın plenumu «Səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar Sov.İKP MK Siyasi Bürosunun üzvü vəzifəsindən azad edilməsi barədə H.Ə.Əliyev yoldaşın xahişini təmin etmişdir». Həmin il oktyabrın 24-də «Pravda» qəzetində dərc olunmuş

məlumatda bildrilirdi: «SSRİ Ali Soveti Rəyasət Heyəti səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilməsi barədə Heydər Əliyev yoldaşın xahişini təmin etmişdir». 1988-ci ildən isə Dağlıq Qarabağ hadisələri başladı. XX əsrin 80-ci illərin ikinci yarısından keçmiş SSRİ-də gedən ictimaisiyasi proseslər Azərbaycanın da sosial-iqtisadi və siyasi həyatına təsir etməyə başladı. Azərbaycanda dövlət müstəqilliyi uğrunda mübarizəyə yol açıldı.

1977-ci ildə Dağlıq Qarabağ məsələsi yenidən qaldırılsa da, onun qarşısı alındı. 70-80-ci illərdə SSRİ-də inzibati-amirlik daha da gücləndi, ictimai-təşkilatların, o cümlədən partiya, komsomol, həmkarlar təşkilatlarının fəaliyyətində formalism daha da dərinləşdi. Yerli Sovetlərin, deputatların statusu
haqqında bir neçə qanun qəbul edildi. Həmçinin 1977-ci ildə qəbul olunmuş SSRİ konstitusiyasına müvafiq olaraq 1978-ci ilin aprelində Azərbaycan SSR-in, may ayında isə Naxçıvan MSSR-in yeni Konstitusiyaları qəbul edildi.

80-ci illərin ortalarından başlayaraq Azərbaycanın da ictimai-siyasi həyatında durğunluq və geriləmə prosesi başladı. İctimai təşkilatların, o cümlədən ilk partiya təşkilatlarının, komsomolun, həmkarlar ittifaqlarının, sovetlərin hüquqları məhdud xarakter daşıyırdı. 1977-ci ildə qəbul edilmiş SSRİ və 1978-ci ildə qəbul edilmiş Azərbaycan SSR konstitusiyalarının 6-cı maddəsində göstərilir ki, Kommunist partiyası sovet cəmiyyətinin rəhbər və istiqamətverici qüvvəsidir. O illərdə demokratiyanın genişləndirilməsindən danışılırdı, lakin bu, hayküydən başqa bir şey deyildi. Yüksək vəzifə tutmaq üçün partiyanın üzvü olmaq başlıca şərt idi. Bu illərdə – 70-80-ci illərdə respublika mərkəzin xammal mənbəyinə çevrilmişdi. 1982-ci ilin 10 noyabrında Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosuna üzv seçilib, Moskvaya, SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsinə tə-yin edildi və Azərbaycanda rəhbərliyə Kamran Bağırov gətirildi. Onun dövründə dövlətçilik, idarəetmə zəiflədi, siyasi sistemdə çürümə prosesi başladı. Mərkəzdə isə Heydər Əliyevə qarşı çıxan qüvvələr, onun nüfuzunu zəiflətməyə çalışırdılar, bu isə alınmırdı. 1987-ci ildə Heydər Əliyevin Moskvada vəzifədən uzaqlaşdırılmasından sonra respublikada siyasi vəziyyət daha da mürəkkəbləşdi, daxili sabitlik pozulmağa başladı. Bir il sonar 1988-ci ildə isə mərkəzin himayə etdiyi ermənilərin Azərbaycana qarşı ərazi iddiaları yenidən baş qaldırdı. Dağlıq Qarabağ problemi yarandı.

XX yüzillikdə Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafının ən yüksək mərhələsi 70-ci illərlə 80-ci illərin birinci yarısına düşür. Sovetlər Birliyi dövründə ittifaq respublikalarının hər birinin iqtisadiyyatı ümumi xüsusiyyətlərlə yanaşı, çox mühüm fərqləndirici cəhətlərə malik idi. 1969-1982-ci illərdə respublikaya rəhbərlik etmiş Heydər Əliyevin iş təcrübəsi əsasında Azərbaycanın iqtisadi həyatında əldə edilən böyük uğurlar ölkəmiz üçün fərqləndirici haldır. Azərbaycan KP MK-nın 1969-cu və 1970-ci il avqust plenumlarında respublikada iş intizamı, iqtisadiyyatda yaranmış uzun sürən geriliyin, mövcud nöqsanların, qüsurların səbəbləri müzakirə edilmiş, onların aradan qaldırılmasının yolları açıqlanmışdı. Plenumlardan sonra Heydər Əliyevin rəhbərliyi altında respublika iqtisadiyyatının dinamik inkişafını təmin etmək üçün kompleks tədbirlər görülmüşdür. Respublika rəhbəri kimi Heydər Əliyev mərkəzdə olan nüfuzundan istifadə edərək Sov.İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən Azərbaycan SSR-in iqtisadi, sosial və mədəni həyatında köklü dəyişiklikləri, intensiv inkişafı təmin edən, respublika əhalisinin maddi həyat səviiyyəsinin yüksəlməsinə gətirib çıxaran bir sıra mühüm qərarların qəbuluna nail olmuşdu: 1) 1970-ci il iyulun 23-də «Azərbaycan SSR xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında»; 1970-ci il iyulun 25-də «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da inkişaf etdirmək tədbirləri haqqında»; 3) 1975-ci il iyulun 9-da «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında»; 4) 1976-cı il iyulun 27-də «1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində»; 5) 1979-cu il fevralın 22-də «Azərbaycan SSR-də kənd təsərrüfatını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri aqqında» və s.

70-ci illərin əvvəllərindən respublika sənayesinin inkişafında yeni mərhələ başladı. Sənayenin strukturunda əsaslı dəyişikliklər baş verdi. 1970-ci ildə sənaye məhsulu istehsalı 8,6

faiz artdı. Bu illərdə neft sənayesində uzun illərdən bəri yığılıb qalmış problemlər həll edilmiş, Azərbaycan neft sənayesinin inkişafı yeni mərhələyə daxil olmuşdu. Respublikada neft tariximizin son yüzilində 1 milyard ton neft çıxarılmışdı. Təkcə, 1971-ci ildə 18 milyon tondan çox neft hasil olunmuşdu.

Neft hasilatında azalmanın qarşısı xeyli alınmış, yəni 7,2 faizdən 2,3 faizə enmişdi. Neft sənayesində neft emalı da aparıcı yer tutur. Bu sahədə mövcud olan qüsurlar və nöqsanlar Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda açıqlanmış və onların aradan qaldırılması ilə bağlı kompleks tədbirlər görülmüşdü. Nəticədə neft emalı müəssisələri inkişaf etdirilmiş, 1976-cı ildə Yeni Bakı Neftayırma, 1982-ci ildə isə Bakı neftayırma zavodunda neftin ilkin emalı üçün ELOU-AVT qurğusundan istifadəyə başlanmışdı. Bu müəssisələrdə 90 adda müxtəlif neft məhsulları – təyyarə, reaktiv qurğu, avtomobil, dizel yanacağı, sürtkü yağları, aşqarlar, bitum, neft-kimya sənayesi üçün xammal istehsal olunurdu. A – 76, Aİ – 93 markalı benzin istehsalı 12,5 faiz çoxalmış, bütövlükdə neftayırma sənayesində məhsul istehsalı 1,4 dəfə artmışdı.

70-80-ci illərdə respublikanın neft maşınqayırma sənayesi öz inkişafının yeni mərhələsinə daxil olmuş, sahənin strukturunda ciddi dəyişikliklər baş vermiş, əsas sexlər yenidən qurulmuş, yeni istehsal sahələri işə salınmışdı. 1985-ci ildə Dərin dəniz özülləri zavodu, 1983-cü ildə Qroznı-Bakı neft kəməri istifadəyə verilmişdi. 1969-1982-ci illərdə əlvan metallurgiya sənayesində məhsul istehsalı 2,2-2,5 dəfə artmışdı. 70-80-ci illərdə Azərbaycanın iqtisadi xəritəsi, təqribən, 100 sənaye sahəsini əhatə edirdi. Onlardan biri də kimya sənayesi idi.

70-ci illərdə Sumqayıt Kimya Sənayesi Müəssisələri Birliyində iri komplekslər, Bakı Şin zavodunda yeni avtokamera sexi, VPM-2-200 tipli iki avtomat xətt, Salyan Plastik Kütlələr zavodu və bir sıra digər istehsal obyektləri istifadəyə verilmişdir.

Maşınqayırma sənaye istehsalının özündə elektrotexnika, radiotexnika, cihazqayırma və b. mühüm sənaye sahələrinin xüsusi çəkisi artan sürətlə yüksəlmiş, 1970-ci ildəki 29,1%-dən, 1975-ci ildə 38,2%-a, 1980-ci ildə isə 51,2 faizə çatmışdı. Respublika Maşınqayırma sənayesinin inkişafında «İttifaqneftmaş» - Ümumittifaq Neft Maşınqayırma Sənayesi Birliyinin rolu böyük olmuşdur. Bu birlik 13 zavoddan, 3 elmitədqiqat konstruktor təşkilatından ibarət idi. 1978-ci il oktyabrın 26-da Azərbaycan KP MK və Nazirlər Sovetində «1978-1980-ci illərdə maşınqayırmanın inkişaf etdirilməsi haqqında» məsələ müzakirə edilmiş və burada qəbul edilmiş müvafiq qərarların yerinə yetirilməsi sahənin inkişafını daha da sürətləndirmişdi. 1971-1980-ci illərdə 4400 yeni növ maşın, cihaz, dəzgah, müxtəlif avadanlıq, o cümlədən bunlardan 400 növü keçmiş SSRİ-də ilk dəfə, istehsal olundu. 1981-1985-ci illərdə respublika maşınqayırma sənayesinin dinamik inkişafı davam etdirilmişdi.

70-80-ci illərdə Azərbaycanda 18 elektrik stansiyasından ibarət energetika kompleksi yaradılmışdı. 1976-1980-ci illərdə Kür çayı üzərində 380 min kilovat gücündə Azərbaycan DRES-in və 120 min hektar sahəni suvarmaq üçün dəryaça tikilib istifadəyə verilmişdi. Bu illərdə əlvan metallurgiya sahəsində məhsul istehsalı 2,2 dəfə çoxalmış, sahədaxili əlvan metallar prokatı, xalq istehlakı mallarının istehsalı daha üstün inkişaf etmişdi. 1970-1985-ci illərdə Naxçıvan MSSR-də sənaye istehsalının həcmi 4,5 dəfə, DQMV-də 3 dəfədən çox, Bakıda 2,3 dəfə, Gəncədə (Kirovabad) 3,2 dəfə, Sumqayıtda 2,5 dəfə, Mingəçevirdə 4,1 dəfə, Əli Bayramlıda 1,8 dəfə artmışdı. 80-ci illərin birinci yarısında respublika sənayesi inkişafının ən yüksək səviyyəsinə çatdı. Keçmiş İttifaq üzrə sənaye istehsalının həcmində Azərbaycanın payı 1,5 dəfə, milli gəlirdə 1,6 dəfə artdı.

70-80-ci illərdə (1970-1985-ci illərdə) elektrotexnika sahəsində istehsalın həcmi 72%, kimya və neft kimya sənayesində 205%, maşınqayırma və metal emalı sənayesində 432% artmışdı. Bu illərdə qara və əlvan metallurgiya sənayesi 166%, meşə və ağac emalı sənayesi 186%, tikinti materialları istehsalı 161%, yüngül sənaye 170 faiz artmışdı. 70-80-ci illərdə respublikada sənayenin maddi-texniki bazası möhkəmlənmiş, əsas istehsal fondları 1,4 dəfə artmış, 64 iri müəssisə istifadəyə verilmişdi. Ümumi gücü iki milyon kilovatt olan Şamxor (Şəmkir) SES, Azərbaycan DRES Zaqafqaziya energetika sisteminə birləşdirilmişdi.

**Yüngül və yeyinti sənayesi.** Əhalinin ən başlıca problemlərindən biri də onun maddi və sosial həyat şəraitinin təmin edilməsi, gündəlik tələbat mallarına olan ehtiyaclarının ödənilməsidir. 70-80-ci illərdə respublika ərazisində fəaliyyət göstərən 1005 sənaye müəssisəsindən 531-i ağır sənayenin, 38-i energetikanın, 18-i yanacağın, 12-i metallurgiyanın, 164-ü maşınqayırmanın, 25-i kimya və neft kimyasının, 204-ü yüngül sənayenin, qalanları isə yeyinti sənayesinin payına düşürdü. 70-80-ci illərdə həyata keçirilən tədbirlər nəticəsində 60- cı illərdə sənayenin bu sahələrində yaranmış çətinliklər və problemlər aradan qaldırıldı. Yüngül və yeyinti sənayesinin inkişafında yeni mərhələ başladı. Yüngül sənayenin inkişafında ipək emalı, pambıqtəmizləmə, pambıq emalı, toxuculuq və digər sahələrin inkişafına diqqət xeyli artırılmışdı. 1976-1980-ci illərdə 38 yeni yüngül sənaye müəssisəsi, o cümlədən Gəncədə (Kirovabad) qənnadı fabriki, ət kombinatı, Bakıda tikiş fabriki, bulka-maya kombinatı, ayaqqabı hissələri fabriki, Sumqayıtda üst trikotaj paltarları fabriki, Xudatda və Lənkəranda konserv zavodları və digər istehsal müəssisələri işə salınmışdı. Bu illərdə respublikanın müxtəlif regionlarında 16 şərab zavodu tikilmişdir və respublikada üzüm emal edən qurğuların gücü üç dəfə artmışdı. Həmçinin yeyinti və yüngül sənaye sahələri texniki cəhətdən yenidən qurulmuş, yeyinti məhsulları sənayesi müəssisələrində müasir texnika və texnologiyanın tətbiqi, istehsal prosesinin avtomatlaşdırılması sahəsində 800-dən çox tədbir həyata keçirilmişdi. Ət və süd istehsalı sahəsində uğurlar daha böyük olmuşdu.

1976-1980-ci illərdə yüngül və yeyinti məhsulları istehsalı 1,4 dəfə, mədəni-məişət və təsərrüfat malları istehsalı 2,7 dəfə yüksəlmişdir. İstehlak mallarının çeşidi genişlənmiş, buraxılan məhsulların 4 mindən çoxu yeni, ilk dəfə buraxılmışdır. Gəncə Xalça Kombinatının işi yeniləşdirilmişdir. 1976-1980-ci illərdə yeyinti sənayesi məhsulları istehsalı 2,6 dəfə artmışdır.

Respublikada ilkin çay emalı fabriklərinin sayı 11-dən 14- ə çatmış, iki çay çəkici-bükücü fabriki istifadəyə verilmişdir. Bu illərdə Azərbaycanda konserv məhsulları istehsalı da böyük sürətlə inkişaf etmişdi. 1980-ci ildə 450 milyon banka konserv buraxılmışdı ki, bu da 1970-ci ildəkinə nisbətən 2,4 dəfə çox idi.

1980-ci ildə Azərbaycanda 76,4 min ton ət, 29,1 min ton kolbasa məmulatları, 219,6 min ton üzlü süd məhsulları, 54,8 min ton bitki yağı, 94,9 min ton qənnadı məmulatı, 164,1 milyon yarım litirlik şüşə qabda mineral sular, 117,8 min ton duz, 18,6 min ton təbii çay istehsal olunmuşdu. 70-80-ci illərdə üzüm emalı və satışı sahəsində də xeyli irəliləyiş olmuşdu.

## 4. Sosial-mədəni quruculuq

Respublikanın iqtisadi inkişafı əhalinin sosial-mədəni həyatını və onların maddi rifah vəziyyətini müəyyən edirdi. 70-80-ci illərdə bu sahədə əsaslı dönüş başlamışdı. 1989- cu il siyahıyaalınmasına görə, respublikada 7,1 milyon əhali yaşayırdı.

**Əhali.** 70-80-ci illərdə Azərbaycanın iqtisadi inkişafı əhalinin sosial strukturunda ciddi dəyişikliklərə, əhalinin sayının artmasına səbəb oldu. 1970-1988-ci illərdə Azərbaycan əhalisinin artım dinamikası aşağıdakı cədvəldə öz əksini tapmışdır: əhalinin sayı 1970-ci ildəki 5117 min nəfərdən 1988-ci ildə 6917 min nəfərə çatmışdı. Şəhər əhalisi respublika əhalisinin ümumi sayının 54 faizini, kənd əhalisi isə 46 faizini təşkil edirdi. Müvafiq olaraq 1970-ci ildə kişilərin sayı əhalinin ümumi sayının 49 faizini, qadınlar isə 51 faizini təşkil edirdisə, bu rəqəm 1988-ci ilə qədər dəyişməmişdir.

Respublika əhalisinin milli tərkibi 1989-cu ildə aşağıdakı kimi olmuşdur:

| | |
|---|---|
| - azərbaycanlılar - 5805,0 min nəfər | - ruslar - 392,3 min nəfər |
| - ermənilər - 390,5 min nəfər | - ləzgilər - 171,4 min nəfər |
| - avarlar - 44,1 min nəfər | - ukraynalılar - 32,4 min nəfər |
| - tatarlar - 28,6 min nəfər | - yəhudilər - 25,3 min nəfər |
| - talışlar - 17,7 min nəfər | - türklər - 17,7 min nəfər |
| - gürcülər - 14,2 min nəfər | - kürdlər - 12,2 min nəfər |
| - tatlar - 10,2 min nəfər | - udinlər - 6,1 min nəfər |
| - dağ yəhudiləri - 5,5 min nəfər | - başqa millətlər - 44,6 min nəfər. |

Cədvəldən göründüyü kimi, 1989-cu ildə respublikada 1 milyon 216 min nəfər qeyri-azərbaycanlı yaşayırdı. 1990-cı ildə respublika əhalisi 7,037,9 min nəfərə, 2001-ci ildə 9 milyon 81 min nəfərə çatmışdı. Onlardan 51 faizini şəhər (4 milyon 107 min nəfər), 49 faizini (3 milyon 974 min nəfər) isə kənd əhalisi təşkil etdirdi.